# AZƏRBAYCAN RESPUBLİKASI
# NAXÇIVAN MUXTAR RESPUBLİKASI
# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASI

Az 7000, Naxçıvan şəhəri,
İslam Səfərli küçəsi 43.

Tel: (+99436) 545 08 27 Faks: (+99436) 544 52 96
E-poçt: office@nmsk.gov.az

**Q Ə R A R**

**№ SQ-01/2024-1**

**Naxçıvan şəhəri** **29 iyun 2024-cü il**

**Naxçıvan Muxtar Respublikasının inzibati ərazi vahidinin hüdudları daxilində seçki dairələrinin sərhədlərinin müəyyən edilməsi üzrə komissiyanın formalaşdırılması haqqında**

Naxçıvan Muxtar Respublikasının Mərkəzi Seçki Komissiyası "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 20.4-cü, 20.13-cü, 23.3-cü, 23.4-cü və 27.3-cü maddəsinə uyğun olaraq

**q ə r a r a   a l ı r:**

**1.** Seçki dairələri sərhədlərinin müəyyən edilməsi üzrə mütəxəssislərdən ibarət komissiya yaradılsın. Komissiya aşağıdakı tərkibdə təsdiq edilsin:

Komissiyanın sədri: Mərkəzi Seçki Komissiyası sədrinin müavini – Xatirə İbrahimli;

Üzvlər: Sədərək rayon İcra Hakimiyyəti başçısının müavini, İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri – Pərviz Ağayev;

Şərur rayon İcra Hakimiyyəti başçısı Aparatının Ərazi idarəetmə və yerli özünü idarəetmə orqanları ilə iş şöbəsinin müdiri – Sahib Qurbanov;

Kəngərli rayon İcra Hakimiyyəti başçısı Aparatının Ərazi idarəetmə və yerli özünü idarəetmə orqanları ilə iş şöbəsinin müdiri – Ağa Seyidov;

Naxçıvan şəhər İcra Hakimiyyəti başçısı Aparatının Ərazi idarəetmə və yerli özünü idarəetmə orqanları ilə iş şöbəsinin müdirinin vəzifələrini müvəqqəti icra edən – Səftər Abdullayev;

Şahbuz rayon İcra Hakimiyyəti başçısı Aparatının Ərazi idarəetmə və yerli özünü idarəetmə orqanları ilə iş şöbəsinin müdiri – Söhrab Kərimov;

Babək rayon İcra Hakimiyyəti başçısı Aparatının Ərazi idarəetmə və yerli özünü idarəetmə orqanları ilə iş şöbəsinin müdiri – Vüsal Məmmədzadə;
Culfa rayon İcra Hakimiyyəti başçısı Aparatının İnformasiya təminatı və təhlili sektorunun müdiri – Mübariz Möhsünov;

Ordubad rayon İcra Hakimiyyəti başçısı Aparatının hüquq şöbəsinin müdiri – Emin Mehbalıyev;

**2.** Seçki dairələrinin yaradılması sxemi və onun qrafik təsviri Naxçıvan Muxtar Respublikası Ali Məclisi seçkiləri gününə ən azı 58 gün qalmış təsdiq olunmaq üçün Mərkəzi Seçki Komissiyasına təqdim edilsin.

**3.** Bu qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr:** Əjdər Əliyev

**Katib:** Əkrəm Hüseynzadə